AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# Aylıq informasiya BÜLLETENİ




**№12**
**Dekabr** **2023**

## İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİ

## Mərkəzi Bank tərəfindən nəzarət subyektlərinin, o cümlədən kredit təşkilatlarının, sığortaçıların, investisiya şirkətlərinin nümayəndələrinin iştirakı ilə görüş təşkil olunmuşdur

Azərbaycan Respublikasının Mərkəzi Bankı vaxtaşırı olaraq səlahiyyəti daxilində öz nəzarətində olan subyektlərlə görüşlər keçirir və maliyyə xidmətləri istehlakçılarına və investorlarına göstərilən xidmət səviyyəsinin artırılması məqsədi ilə onlarla birlikdə müzakirələr aparır. Belə görüşlər silsiləsi 2023-cü ilin dekabr ayında da həyata keçirilmişdir.

Belə ki, 18 dekabr 2023-cü il tarixində Mərkəzi Bank tərəfindən nəzarət subyektlərinin, o cümlədən kredit təşkilatlarının (banklar, bank olmayan kredit təşkilatları), sığortaçıların, investisiya şirkətlərinin nümayəndələrinin iştirakı ilə görüş təşkil olunmuşdur. Görüşdə Azərbaycan Banklar Assosiasiyasının, Mediasiya Şurasının, Azərbaycan Mikromaliyyə Assosiasiyasının və Azərbaycan Sığortaçılar Assosiasiyasının nümayəndələri də iştirak etmişdirlər.

Keçirilmiş görüşdə nəzarət subyektlərinin və mediasiya təşkilatlarının nümayəndələri ilə ilin yekununa dair müzakirələr aparılmış, xidmət göstərilən sahələrin daha da optimallaşdırılması və təkmilləşməsi ilə bağlı təkliflər dinlənilmiş və atılacaq növbəti addımlar müzakirə edilmişdir.

Görüş iştirakçıları tərəfindən maliyyə xidmətləri istehlakçılarına göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər səsləndirilmiş və onlar tərəfindən ünvanlanan suallar Mərkəzi Bank tərəfindən cavablandırılmışdır.



## İmişli şəhərində səyyar qəbulun təşkili və vətəndaşların maliyyə savadlılığının artırılması məqsədi ilə görüş keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi məsələsi daim diqqət mərkəzində saxlanılmaqla mütəmadi olaraq tədbirlər həyata keçirilir. Mərkəzi Bankın bu istiqamətdə əsas hədəflərindən biri maliyyə xidməti istehlakçılarının maliyyə savadlılığının artırılması yolu ilə hüquqlarının müdafiəsinin təmin olunmasıdır. Bununla əlaqədar olaraq Mərkəzi Bank tərəfindən ölkəmizin müxtəlif bölgələrində yaşayan və nəzarət subyektləri ilə narazılıqları yaranan maliyyə xidmətləri istehlakçılarının müraciətlərinin qəbul olunması, həm də vətəndaşların maliyyə xidməti sahəsində maarifləndirilməsi məqsədilə tədbirlər təşkil olunur. Məhz bu məqsədlə 19 dekabr 2023-cü il tarixində İmişli şəhərində yerləşən Heydər Əliyev Mərkəzində səyyar vətəndaş qəbulu həyata keçirilimişdir.

Səyyar qəbul zamanı maliyyə xidməti istehlakçılarının şifahi müraciətləri dinlənilmiş, maliyyə xidməti sahəsi ilə bağlı onları maraqlandıran suallar cavablandırılmış, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması fonunda vətəndaşların təklifləri qeydə alınmış, eləcə də maliyyə savadlılığının artırılması məqsədi ilə müvafiq məlumatlar verilmişdir.





# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ İLƏ BAĞLI STATİSTİK MƏLUMAT

## Daxil olan zənglər




## Yazılı müraciətlər




## Vətəndaşların qəbulu




| Bank | Sığorta | Kapital bazarı | Digər |
|---|---|---|---|

## Whatsapp üzərindən qeydiyyata alınmış müraciətlər haqqında məlumat




- Mərkəzi Bankın rəsmi cavab məktubunun əldə edilməsi ilə bağlı
- Əks Əlaqə
- Nəzarət subyekti ilə əlaqə saxlanılmasında yaranan çətinliklə bağlı
- Digər

## Bakı Dövlət Universitetində əcnəbi tələbələr üçün məlumatlandırma sessiyası keçirilmişdir

1 dekabr 2023-cü il tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz və Dövlət Miqrasiya Xidməti ilə birgə Azərbaycanda yaşayan miqrantlar və qaçqınlar üçün İnteqrasiya Proqramı fəaliyyətləri çərçivəsində Bakı Dövlət Universitetində təhsil alan əcnəbi tələbələr üçün İnteqrasiya Programı haqqında məlumatlandırma sessiyası keçirilmişdir.



## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında əcnəbi tələbələr üçün məlumatlandırma sessiyası keçirilmişdir

7 dekabr 2023-cü il tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz və Dövlət Miqrasiya Xidməti ilə birgə Azərbaycanda yaşayan miqrantlar və qaçqınlar üçün İnteqrasiya Proqramı fəaliyyətləri çərçivəsində Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında təhsil alan əcnəbi tələbələr üçün İnteqrasiya Programı haqqında məlumatlandırma sessiyası keçirilmişdir.



## Virtual kurs müsabiqəsinin qalibləri

Azərbaycan Respublikasının Mərkəzi Bankı və Mastercard beynəlxalq kart təşkilatı tərəfindən 16 oktyabr 2023-cü il tarixində Əmanət Günü (31 oktyabr) və Maliyyə Savadlılığı ayı (noyabr) çərçivəsində Bankçılıq və rəqəmsal ödənişlər / Банковское дело и цифровые платежи virtual kursu üzrə elan olunan müsabiqə başa çatdı.

Vurğulamaq istərdik ki, müsabiqənin başa çatmasına baxmayaraq bütün tədris resursları yenə də əvvəlki və yeni iştirakçılara açıqdır.




## Virtual kurs müsabiqəsinin qalibləri

Azərbaycan Respublikasının Mərkəzi Bankı və Mastercard beynəlxalq kart təşkilatı tərəfindən 16 oktyabr 2023-cü il tarixində Əmanət Günü (31 oktyabr) və Maliyyə Savadlılığı ayı (noyabr) çərçivəsində "İzafi borclanma: problemlər və tövsiyələr", "Vətəndaşlar üçün sığorta" və "Maliyyə Savadlılığı: Strategiya, Tədris, Təhlil" kursları üzrə elan olunan müsabiqə başa çatdı.

Vurğulamaq istərdik ki, müsabiqənin başa çatmasına baxmayaraq bütün tədris resursları yenə də əvvəlki və yeni iştirakçılara açıqdır. .



## "Xüsusi Tənzimləyici Test Rejimləri" distant maarifləndirici təlim istifadəyə verildi

Bir qayda olaraq, tənzimləmənin inkişaf sürəti texnologiyaların inkişaf sürətindən aşağı olur. Bu səbəbdən, bütün dünyada tənzimləmələr sahəsində tənzimləyicilər, bir tərəfdən yeni texnologiyaların tətbiqində risklərinin azaldılması, digər tərəfdən isə innovasiyalar üçün əsassız maneələrin qarşısının alınması üçün yeni yanaşmalar axtarırlar.

Bu yanaşmalardan biri "xüsusi tənzimləyici test rejimlərinin" yaradılmasıdır. Bu tip rejimlər çərçivəsində şirkətlərin öz yeni məhsul və ya modellərini bazarın məhdud bir hissəsində sınaqdan keçirə bilmələri üçün imkan yaranır. Lakin bu zaman şirkətlər qanunvericiliyin tələblərinə riayət etməyə bilərlər. Bu yolla şirkətlər belə yanaşmalara tələbin olub-olmamasını və onun reallaşdırılması imkanlarını qiymətləndirə bilərlər. Tənzimləyicilər üçün isə həmin yanaşmalar əsasında onun inkişafını izləmək və bütün bazarı potensial risklərə məruz qoymamaq üçün şərait yaranır.

Əvvəlllər xüsusi tənzimləyici test rejimləri iqtisadiyyatın bir sıra sektorlarında müxtəlif dərəcədə istifadə olunmuşdur. Buna baxmayaraq, maliyyə bazarlarında onların tətbiqi həmin sektorlarla müqayisədə nisbətən yenidir.

Bu kursda biz, mövcud maliyyə innovasiyaları onların tətbiqinin qarşısını kəsən maneələr, eləcə də xüsusi tənzimləyici test rejimlərinin növləri və əsas fəaliyyət formaları ilə tanış olmaqla yanaşı "Etirazsız məktublar" kimi əlaqəli tənzimləyici alətləri də nəzərdən keçiririk.

Dünya Bankı Qrupunun Elektron və Rəqəmsal Maliyyə Xidmətləri Layihəsi Dünya Bankı Qrupunun üzvü olan IFC tərəfindən İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) ilə tərəfdaşlığı çərçivəsində həyata keçirilir.



## “Sığortanın əsasları” distant kurs istifadəyə verildi

Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə həyata keçirdiyi “Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin həyata keçirilməsi” layihəsi çərçivəsində Tena B. Kryusun “Sığortanın əsasları” kitabı əsasında virtual dərs çəkilmiş və kitab Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur.

“Sığortanın əsasları” kitabının nəşr edilməsi və həmin kitab əsasında virtual kursun hazırlanmasında məqsəd sığorta sahəsində Azərbaycan dilində akademik ədəbiyyat boşluğunun qismən aradan qaldırılmasıdır.

Kitab 9 fəsildən ibarətdir, bundan əlavə oxucuların kursları daha yaxşı mənimsəməsi üçün kitaba xüsusi sərlövhələrdə öyrənməni sürətləndirən materiallar daxil edilmişdir. Bunlara Ünsiyyət qurun, Etik prinsiplər, Maraqlı faktlar, Sığortanın riyaziyyatla əlaqəsi, Komanda işi başlıqları və s. daxildir. Hər Fəslin sonunda onun mənimsənilmə səviyyəsinin qiymətləndirilməsi üçün tapşırıqlar verilir.

İstehlakçıların, o cümlədən tələbələrin və sığorta sahəsində yeni fəaliyyətə başlayanların faydalanması üçün kursu və kitabı sizə təqdim edir, bu dəyərli resursların istifadəçilər üçün əhəmiyyətli və maraqlı olacağını düşünürük.



## Biləsuvar rayonunun 6 saylı Məcburi köçkün qəsəbəsində yerləşən Xanış Rüstəmov adına Yuxarı Mərcanlı kənd tam orta məktəbində imtahan təşkil olunmuşdur

08 dekabr 2023-cü il tarixində Mərkəzi Bankın Virtual Təhsil platformasınında "Uşaqlar və pullar" virtual kursunu bitirmiş Biləsuvar rayonunun 6 saylı Məcburi köçkün qəsəbəsində yerləşən Xanış Rüstəmov adına Yuxarı Mərcanlı kənd tam orta məktəbinin 32 şagirdi üçün imtahan təşkil olunmuşdur.





## Şirvan və Hacıqabul şəhərlərində orta məktəb şagirdləri üçün imtahan təşkil olunmuşdur

13 dekabr 2023-cü il tarixində Mərkəzi Bankın Virtual Təhsil platformasınında "Uşaqlar və pullar" virtual kursunu bitirmiş Şirvan şəhərində yerləşən 1, 4, 9, 10, 13, 18, 21 nömrəli tam orta məktəblərinin və Hacıqabul şəhərində yerləşən Qubalıbaloğlan kənd, Rəncbər kənd, 6 və 8 nömrəli tam orta məktəblərinin 76 şagirdi üçün imtahan təşkil olunmuşdur.





## Xəzər Unviersitetində əcnəbi tələbələr üçün maarifləndirmə sessiyası keçirilmişdir

7 dekabr 2023-cü il tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz və Dövlət Miqrasiya Xidməti ilə birgə Azərbaycanda yaşayan miqrantlar və qaçqınlar üçün İnteqrasiya Proqramı fəaliyyətləri çərçivəsində Xəzər Universitetində təhsil alan əcnəbi tələbələr üçün İnteqrasiya Programı haqqında məlumatlandırma sessiyası keçirilmişdir.



## Bakı Slavyan Universitetində əcnəbi tələbələr üçün məlumatlandırma sessiyası keçirilmişdir

21 dekabr 2023-cü il tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz və Dövlət Miqrasiya Xidməti ilə birgə Azərbaycanda yaşayan miqrantlar və qaçqınlar üçün İnteqrasiya Proqramı fəaliyyətləri çərçivəsində Bakı Slavyan Universitetində təhsil alan 20 əcnəbi tələbə üçün İnteqrasiya Proqramı haqqında məlumatlandırma sessiyası keçirilmişdir.



## Memarlıq və İnşaat Universitetinin tələbələri üçün Maliyyə savadlılığı təlimləri təşkil olunmuşdur

15 noyabr – 13 dekabr 2023-cü il tarixlərində Azərbaycan Respublikasının Mərkəzi Bankının İstehlakçılarla iş departamenti maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi, eyni zamanda istehlakçıların maliyyə savadlılığının artırılması istiqamətində təşkil etdiyi tədbirlər çərçivəsində Memarlıq və İnşaat Universitetinin ümumilikdə 50 nəfərə yaxın tələbəsi üçün Maliyyə savadlılığı mövzularında seminarlar təşkil olunmuşdur. Seminarlar zamanı tələbələrə onlayn platformada mövzuları dinləmək imkanı yaradılmış, həmçinin auditoriyanı maraqlandıran suallar cavablandırılaraq interaktivlik təmin edilmişdir. Maliyyə savadlılığı proqramı Mərkəzi Bankın maliyyə savadlılığının artırılması istiqamətində hazırlanmış elektron resurslarla (infobank.az, edu.e-cbar.az, bizimpullar.az) yanaşı "Maliyyə Savadlılığı: Strategiya,Tədris", "Milli Pul Nişanları və onların təhlükəsizlik elementləri", "Neyromarketinq", "Rəqəmsal ödənişlərin üstünlükləri", "Kredit tarixçəsi", "Vətəndaşlar üçün sığorta", "İstehlak büdcəsi" və "İstehlak kreditlərinin xüsusiyyətləri" mövzularını da əhatə etmişdir..






## Mərkəzi Bankın Yevlax Ehtiyat Mərkəzində kommersiya banklarının mütəxəssisləri üçün seminar təşkil olunmuşdur

Regionlarda maliyyə xidmətlərinin yaxşılaşdırılması, maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi, maliyyə savadlılığının artırılması məqsədilə bank əməkdaşlarına seminarların keçirilməsi davam edir. Növbəti seminar Yevlax regionunda fəaliyyət göstərən kommersiya banklarının 19 kassa əməkdaşı üçün 15 dekabr 2023-cü il tarixində aşağıda qeyd olunmuş mövzular üzrə təşkil edilmişdir:

- “Pul nişanlarının dəyişdirilməsi və ekspertizası” qanuna dəyişikliklər
- Mərkəzi Bankın maliyyə savadlılığının artırılması məqsədilə hazırlanmış elektron resursları (bizimpullar.az, edu.e-cbar.az, infobank.az)

Seminarda qanunda baş vermis dəyişiklər, Mərkəzi Bankın yaratdığı elektron Maliyyə savadlılıgı resursları və orada yerləşdirilən maarifləndirici videoçarxlar, onlayn kurslar və s. haqqında ətraflı məlumat verilmiş, müzakirələr aparılmış və iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Bank işçiləri üçün nəzərdə tutulan seminarlar digər regionlarda da davam etdiriləcəkdir.



## İmişlidə Maliyyə savadlılığı mövzusunda seminar təşkil olunub və səyyar vətəndaş qəbulu keçirilib

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi və malıyyə savadlılığının artırılması məsələsi daim diqqətdədir. Bu məqsədlə mütəmadi olaraq tədbirlər həyata keçirilir, müvafiq qurumlarla əməkdaşlıq edilir, istehlakçı və investorların hüquqlarının müdafiəsi ilə bağlı yerində, onlayn və səyyar qəbullar da həyata keçirilir və seminarlar təşkil edilir.

Bu tədbirlərdən biri olaraq 19 dekabr 2023-cü il tarixində İmişli Rayon İcra Hakimiyyətinin təşkilati dəstəyi ilə Mərkəzi Bank "Regional İnkişaf" İctimai Birliyi birlikdə İmişli şəhərində vətəndaşların səyyar qəbulunu həyata keçirmiş, o cümlədən 30 nəfər gəncə Mərkəzi Bankın Maliyyə savadlılığını artırmaq üçün hazırlanmış elektron resurslarını (https://bizimpullar.az/, https://edu.e-cbar.az/, https://infobank.az/) təqdim edilmişdir.

Səyyar qəbul zamanı vətəndaşların maliyyə xidmətləri ilə bağlı müraciətləri dinlənilmiş, hər birinin qeydiyyatı aparılmış, sakinlərə məsləhət xidməti göstərilərək müvafiq maarifləndirici məlumatlar verilmişdir.

Seminar zamanı gənclərə ənənəvi təlim üsullarını müasir formatda təklif edən Mərkəzi Bankın Virtual Təhsil Platforması vasitəsilə iqtisadiyyat, maliyyə-bank, sığorta, vergilər, statistika və s. sahələr üzrə öz bilik və bacarığını inkişaf etdirmək istəyənlərə dəstək olaraq keçirilən ödənişsiz kurslar haqqında ətraflı məlumat verilib. Azərbaycan, rus və ingilis dillərində təklif edilən və əhalinin müxtəlif hədəf qruplarını əhatə edən bu platformada, həmçinin uşaqlar üçün də müvafiq kursların təşkil olunduğu bildirilib. Platformadan istifadə qaydaları izah edilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



## Əmanət Günü (31 oktyabr) və Maliyyə Savadlılığı ayında (noyabr) keçirilən müsabiqələrin qalibləri təltif edilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı və Mastercard Beynəlxalq Kart təşkilatı tərəfindən 21 dekabr 2023-cü il tarixində Əmanət Günü (31 oktyabr) və Maliyyə Savadlılığı ayı (noyabr) çərçivəsində "İzafi borclanma: problemlər və tövsiyələr", "Vətəndaşlar üçün sığorta" və "Maliyyə Savadlılığı: Strategiya, Tədris, Təhlil" kursları üzrə müəllimlər arasında, Bankçılıq və rəqəmsal ödənişlər / Банковское дело и цифровые платежи virtual kursları üzrə şagirdlər arasında keçirilən müsabiqə qalibləri sertifikatlar və hədiyyələrlə təltif edilmişdir.

Müsabiqədə əsasən ölkənin 16 şəhər və regionundan 153 şagird, 6 müəllim iştirak etmiş, onlardan 76 şagird və 5 müəllim kursları uğurla tamamlayaraq qalib olmuşdur.

Bu müsabiqənin geniş auditoriyası virtual dərslərə marağı daha da artırmış və hazırda kurslara müxtəlif hədəf qruplarının intensiv müraciəti müşahidə edilir.






## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində əcnəbi tələbələr üçün məlumatlandırma sessiyası keçirilmişdir

27 dekabr 2023-cü il tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz və Dövlət Miqrasiya Xidməti ilə birgə Azərbaycanda yaşayan miqrantlar və qaçqınlar üçün İnteqrasiya Proqramı fəaliyyətləri çərçivəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alan 18 əcnəbi tələbə üçün İnteqrasiya Proqramı haqqında məlumatlandırma sessiyası keçirilmişdir.



## Zədələnmiş pul nişanlarını necə dəyişdirək?

"Azərbaycan Respublikasının Mərkəzi Bank haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş sonuncu dəyişikliklərlə pul nişanlarının dəyişdirilməsivə ekspertizası ilə bağlı müddəalara müvafiq dəyişikliklər edilmişdir. Qeyd olunan dəyişikliklərin əhalinin və bank sektorunun diqqətinə çatdırmaq üçün Mərkəzi Bank tərəfindən Bakı şəhərində, ölkənin regionlarında bir sıra seminarlar keçirilmişdir. Bununla yanaşı, müvafiq yeniliklərlə bağlı məlumatların ölkənin hər bir vətəndaşı üçün əlçatan olması məqsədilə Mərkəzi Bank tərəfindən maarifləndirici video rolik hazırlanmış və artıq 26.12.2023-cü il tarixindən Mərkəzi Bankın sosial şəbəkələri vasitəsilə yayımlanmağa başlanılmışdır.

#zədələnsətəzələ



**Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun əməkdaşları üçün Maliyyə savadlılığı seminarları keçirilmişdir**

Azərbaycan Respublikasının Mərkəzi Bankının İstehlakçılarla iş departamenti maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi, eyni zamanda istehlakçıların maliyyə savadlılığının artırılması istiqamətində davamlı işlər görür, tədbirlər təşkil edir. Bu tədbirlərin davamı olaraq 15 və 22 dekabr 2023-cü il tarixlərində Vəkillər Kollegiyasının 22 nəfər, Qida Təhlükəsizliyi İnstitutunun 6 nəfər üzvünə Mərkəzi Bankın maliyyə savadlılığının artırılması istiqamətində hazırlanmış elektron resursları (www.infobank.az, www.edu.e-cbar.az, www.bizimpullar.az), Əmanətlərin sığortalanması, Kapital bazarları / Qiymətli kağızlar, Rəqəmsal ödənişlərdən istifadənin üstünlükləri, Milli pul nişanları və onların saxtalaşdırılmasına qarşı mübarizə mövzusunda seminarlar keçirilmişdir.

Seminarlar proqram əsasında gələcəkdə də davam etdiriləcəkdir.



# TƏDBİRLƏR üzrə STATİSTİKA




**297** İmtahan

**181** Sertifikat

Təlim, seminar, vebinar **17**

İştirakçı **222**

İştirak **479**



# ELEKTRON RESURSLAR üzrə STATİSTİKA

## Ziyarətçilər




## Baxışlar




bizimpullar.az | edu.e-cbar.az | infobank.az